# Bədii albomun təqdimatı keçirilib



Xalq Bankın "Xalq Əmanəti" mədəniyyət layihəsi çərçivəsində xalq rəssamı, professor Nadir Əbdürrəhmanovun zəngin irsindən bəhs edən sərgi açılıb və "Rəngkarlıq və qrafika" bədii albomunun təqdimatı keçirilib.

Tədbirdə xalq rəssamları Fərhad Xəlilov, Ömər Eldarov, Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynov və başqaları çıxış edərək layihəni yüksək qiymətləndiriblər.

Təqdimatda bildirilib ki, layihənin sayca on üçüncü nəşri olan "Rəngkarlıq və qrafika" bədii albomu Nadir Əbdürrəhmanovun həyat və yaradıcılığının bütün mərhələlərini ehtiva edir.

Vurğulanıb ki, yaradıcılığına xas yeni forma axtarışları sayəsində, sərt realist üslubu və miniatür sənəti ilə səsləşən orijinal dəst-xətti, təsviri sənətdə dekorativliyə və kolorit zənginliyinə xüsusi diqqət yetirməsi Nadir Əbdürrəhmanovun özünəməxsus üslubunu formalaşdırıb. Onun yetişdirdiyi rəssamlar arasında yüksək fəxri adlara layiq görülmüş sənətkarlar var. Rəssamın yaradıcılığı gənc boyakarlar üçün örnək və böyük məktəbdir. N.Əbdürrəhmanovun əsərləri Azərbaycan milli incəsənətinin dəyərli nümunələri olaraq dünyanın böyük muzey və qalereyalarında qorunur.